# İSMAYIL İMANZADƏNİN YARADICILIQ GECƏSİ

Yanvarın 25-də «İstiqlal» muzeyində baş tutan tədbiri Cəbrayıl rayon Tarix-Diyarşünaslıq muzeyinin direktoru Tariyel Abbaslı açdı: - Cəbrayılımızın, Azərbaycanın çağdaş poeziyasının görkəmli nümayəndəsi İsmayıl İmanzadənin söz işığına - yaradıcılıq gecəsinə yığışmışıq. İsmayıl müəllim 1945-ci ilin dekabrında Böyük Mərcanlı kəndində anadan olub. Onun 60, 65, 70 illik yubileylərinin keçirilməsinə razılıq verməyib ki, Cəbrayıl düşmən tapdağından azad olmayanacan yubiley keçirməyəcək. İndi də o, yubiley yox, yaradıcılıq gecəsi keçirməyə görə razılıq verib. Həm də artıq Cocuq Mərcanlıda yaşayışın bərpa olunması Cəbrayılın, Qarabağın alınması üçün bünövrənin qoyulması deməkdir. Ömrü boyu Cəbrayılda yaşayan İsmayıl İmanzadə məcburi köçkün düşdükdən sonra da Mingəçevirdə yaşamaqla əyalət şairi oldu. O, ədəbi qüvvələri başına toplayıb Mingəçevirdə Azərbaycan Yazıçılar Birliyinin bölməsini yaratdı. Daha sonra T.Abbaslı İsmayıl İmanzadənin yaradıcılığına müraciət etməklə onu vətənpərvərlik ruhunda, məhəbbət mövzusunda dəyərli şeirlər müəllifi kimi xarakterizə etdi. «Sübhə qədər yanar ocaq istəsən, İsmayılın ürəyində gecələ» misralarını misal gətirib, onun şeirlərinə çoxlu mahnılar bəstələndiyini də diqqətə çatdırdı.

Rayon İcra Hakimiyyəti başçısının birinci müavini, YAP rayon təşkilatının sədri Arif Fərzəliyev çıxışında İsmayıl müəllimin təkcə şair kimi yox, rayonun ictimai-siyasi həyatında da mühüm xidmətlər göstərdiyini bildirib, qeyd etdi ki, o, 1992-2014-cü illərdə ərazi sosial xidmət mərkəzinin direktoru oldu və bu minvalla biz onunla 22 il bir yerdə işlədik. Bu müddət ərzində də biz rəhbər - işçi münasibətlərindən çox səmimi dostluq şəraitində işləmişik. Yəni o, dostluqda da çox möhkəm insandır və bu gün də dostluğumuz davam edir.

Arif müəllim Rayon İcra Hakimiyyətinin başçısı Kamal Həsənovun Qarabağın, Cəbrayılın qayıdış qapısı olan Cocuq Mərcanlıdan söylədiyi salamlarını çatdırıb, göndərdiyi Fəxri Fərmanı ona təqdim edib, şairə uzun ömür, yaradıcılıq uğurları və yubileyinin tezliklə doğma Cəbrayılda, Böyük Mərcanlıda keçirilməsini arzuladı.

Azərbaycan Yazıçılar Birliyinin müşaviri yazıçı Elçin Hüseynbəyli çıxışında qeyd etdi ki, həyatımda ilk gördüyüm canlı şair İsmayıl İmanzadə olub. O vaxtlar onun və təşkil etdiyi «Ümid» ədəbi birliyinin üzvlərinin «Kolxozçu» (indiki «Xudafərin») adlı rayon qəzetində silsilə şeirləri çap olunurdu. Bu gün İsmayıl İmanzadə respublika səviyyəsində olan şairdir. Azərbaycan Yazıçılar Birliyinin rəsmi orqanlarında müntəzəm çap olunub. Bunlar da bir daha göstərir ki, o, istedadlı şairdir. Mən onun istedadı ilə fəxr edirəm ki, həm cəbrayıllıdır və o, əsərində də, xarakterində də həmişə cəbrayıllılığı qoruyub saxlayıb.

«Kredo» qəzetinin baş redaktoru, şair-publisist Əli Rza Xələfli özünəxas tərzdə alovlu çıxışında qeyd etdi ki, bu gün mötəbər ədəbiyyat adamlarının burda olması İsmayıl müəllimin nüfuzunu göstərir. Nüfuz ömür verib alına bilən sərvətdir. Bu, sənin böyük sənətinin böyük etirafıdır. Sevilən-duyulan, anlaşılan və ədəbi mühitdə görünən sənətkarsan. Daxilən qaralmalar-yanmalar sənin üzünə də çıxıb. Burada respublikanın aparıcı simalarının olması da sənin mükəmməl bir vəzn sahibi olmağını göstərir. Şair iki böyük həqiqətin - acı və şirin olan həqiqətin arasında dayanır və şair bu tarazlığı qorumağa xidmət edir.

Daha sonra Ə.R.Xələfli: - Ad insanın tale yoludur. Valideyn uşağa ad qoyanda öz arzu və istəklərini o adla ifadə edir. İsmayıl müəllim haqqında ilk yazını o vaxt rayon qəzetində mən yazmışam. Mən onda kənd məktəbində müəllim işləyirdim və məndən kiçik olan qardaşım İsmayıl öz adaşı olan İsmayıl İmanzadənin gələcəkdə böyük şair olacağını söyləmişdi. Uşaq qəlbi təmizliyinə görə ruhu saf olan şamandır və o uşağın o vaxt söylədiklərinin bu gün burda təsdiqini görürəm. Arzu edirəm ki, sədaqət, ülfət, məhəbbət körpünüzü bundan sonra da qoruyasınız, - deyib fikirlərini tamamladı.

Professor Rüstəm Kamal: - Cəbrayıl görmədiyim, ancaq sevdiyim müqəddəs torpaqdır. Halallıqla qurulan torpaqdır. Yeganə rayon idi ki, bazarı yox idi. Qurbani bir övliyanın-pirin adıdı. Xan çinarları ilə yanaşı çoxlu ziyarət yerləri olub. Belə yerlərdən ancaq halal söz adamları, ziyalılar çıxar. İsmayıl müəllim də o torpağın yetirməsidir, taleyi olan şairdir. Diri dağın ətəyindən Bozdağın ətəyinə getməsi ilə M.V.Vidadi kimi qürbətdə yaşayır. Qürbəti içində yaşadır, sözə də çevirir. Kənd adamı olsa da, kəndçiliyindən utanmır. Kəndli diliylə danışıb, mən xəyalən neçə dəfə Cəbrayıla gedib-gəlmişəm. O, qəriblik taleyini çox mükəmməl yaşadan və yaşayan şairdir. İsmayıl müəllim təbiəti duyur, gördüyü mənzərəni içində yaşada bilir. O, Mingəçevirə gələndən sonra da Cəbrayılda, Mərcanlıda üşüyən budağın təsvirini verir, - deyərək şairin şeirlərindən nümunələr oxudu.



R.Kamal qeyd etdi ki, İsmayıl İmanzadənin şeirlərində çoxlu qar ifadəsi var, qar da işıqla bağlıdır. Şeirlərindəki işıqla zülmətlə vuruşur. İçində işığa, saflığa can atır. Ona görə də ümidi yaşadır. O, bilmir küssünmü? Bilmir kimdən küssün? Onun yerinə başqası olsaydı, bəlkə Tanrıya da suallar verərdi ki, məni niyə bu günə saldın? Amma o, bunu eləmir, çünki içində ümid işığı yaşayır.

Sabiq polis rəisi, istefada olan polkovnik Vaqif Məhərrəmov dedi ki, 1976-cı il idi. Rayon Komsomol Komitəsində şöbə müdiri idim. İsmayıl müəllim onda gənc şair idi, gəldi, gəldi ki, rayonda «Ümid» ədəbi birliyi yaratmaq istəyir. Onda rayon Komsomol Komitəsinin qərarı ilə «Ümid» ədəbi birliyi yaradıldı. Şair Şahmar Əkbərzadə də o vaxt rayona qonaq gəlmişdi. Qısa vaxtda «Ümid» gənc şairlər yetirdi. Vaqif müəllim çıxışında İsmayıl İmanzadənin rayondakı ictimai fəaliyyətindən də söz açdı. Bundan başqa, Tariyel Abbaslı ilə birgə rayonumuzun şəhidləri ilə bağlı kitabın müəllifi olduğunu da xatırlatdı və bildirdi ki, İsmayıl müəllim hərtərəfli adamdır və biz onunla fəxr edirik.

İstefada olan polkovnik, tarix üzrə fəlsəfə doktoru Əjdər Yunus Rza da xatirələrə söykənib danışdı: - 1969-cu ildə Xələfli kənd 8 illik məktəbini bitirib Şükürbəyli kənd orta məktəbinə gəldim. İsmayıl İmanzadə də onda təzə müəllim gəlmişdi. Bayaq Vaqif Məhərrəmov «Ümid» ədəbi dərnəyinin 1976-cı ildə təsis olunduğunu bildirdi. Amma «Ümid» ədəbi dərnəyinin qeyri-rəsmi olaraq 1969-cu ildə «Kolxozçu» qəzetinin nəzdində o vaxtkı redaktor Adil Şərifovun iştirakı ilə əsası qoyuldu. Mənim də ilk şeirim - bir bəndlik «Bulaq suyu» adlı şeirin o vaxt çap olundu. İsmayıl müəllimin xeyir-duası ilə. Bir şeirim də 1970-ci ildə çap olundu.

«Ədəbiyyat qəzeti»nin şöbə müdiri, şair Sərvaz Hüseynoğlu: - İsmayıl müəllim olduğu-yaşadığı yeri vətən eləyən insandır. Mingəçeviri də vətən edib. Nadir şəxsiyyətdir, ocaq olan adamdır, insanlığı şəxsiyyətini, şəxsiyyəti yaradıcılığını tamamlayan insandır, - deyib xoş arzu və istəklərini çatdırdı. «Dirili Qurbani» məclisinin təşkilat rəhbəri, şair Malik Əhmədoğlu da çıxışında şairə uğurlar arzuladı, İsmayıl İmanzadəyə ünvanladığı şeirini oxudu: -

Yazıçı Qorxmaz Abdulla: - İ.İmanzadə qələmi qurutmadı, qələmi göyərtdi, monumental əsərlər yazdı-yaratdı. Şeir savaşında Füzuli dözümü nümayiş etdirdi, oxucuların sevimlisi oldu, - deyərək şairin yaradıcılığına xitabən bədii təsvir və ifadə vasitələrinin yerli-yerində işlənildiyindən və s. sənətkarlıq keyfiyyətlərindən danışdı.

158 saylı Yasamal rayon məktəblilərindən Sevda Verdiyeva, Aişə Abbaszadə, Nuray Səfiyeva, Ayla İsayeva, Sinavər Cəbizadə şair İsmayıl İmanzadənin yaradıcılığından əzbər nümunələr səsləndirdilər.

İsmayıl İmanzadənin 30-dan çox şeirinə mahnı bəstələndiyini diqqətə çatdıran aparıcı T.Abbaslı qeyd etdi ki, bu mahnıların çoxunu həmyerlimiz Məlahət Həmidqızı bəstələmişdir. Cəbrayıl Musiqi məktəbinin direktoru Vüsal Zamanov, Zəminə Hüseynova, Gülnarə Hümmətova şairin sözlərinə bəstələnmiş «Cəbrayılda qalan dünyam», «Arazım», «Cəbrayıllılar» və başqa mahnıları ifa etdikcə, şeirlərdə əksini tapan həzin nisgil duyğuları iştirakçıların qəlbini sızlatdı.

Tədbirdə söz-sənət adamlarından aktyor Təvəkkül Əhmədov, Arif Xəlilov, şairlərdən Mətanət Ulu Şirvanlı, Kifayət Salmanqızı, Əzizə Ağahüseynqızı, Şərif Ağayar, Seyfəddin Məmmədvəliyev və başqaları çıxışlar edərək şairə yaradıcılıq uğurları arzuladılar.

Tədbirin sonunda İsmayıl İmanzadə «İstiqlal» muzeyinin direktoru Fəridə xanım Şəmsiyə, Muzeyin fond müdiri Aidə xanıma tədbirin keçirilməsində yaradılan imkan və şəraitə görə təşəkkürlərini ünvanladı, verdiyi mənəvi dəstəyə görə Cəbrayıl rayon İcra Hakimiyyətinə, habelə bütün iştirakçılara minnətdarlıq hisslərini ifadə edib, şeirlərindən nümunələr oxudu.

**Şakir ALBALIYEV**